Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 28 (1156) 11 fevral - 12 fevral 2016-cı il

# FÜZULİ - GÖZƏL DİYAR...

(əvvəli ötən saylarımızda)

**Füzuli rayonunun sosial-iqtisadi inkişafı ilə yanaşı, onun mədəni həyatı da durmadan tərəqqi etməkdədir. Yəni rayonun mədəniyyət infrastrukturunda çox böyük yeniliklər və inkişaf var. Bu da təsadüfi deyildir. Çünki ölkə prezidenti cənab İlham Əliyev regionlarda elmin, mədəniyyətin inkişafına da böyük önəm verir və bu sahənin tərəqqisi üçün dövlət tərəfindən bütün dövrlərdə maddi köməklik göstərilir. Ona görə də bu gün tək Füzulidə deyil, hansı rayona yolun düşsə, orda yeni tikilmiş mədəniyyət ocaqlarına, klublara, muğam evlərinə rast gəlmək mümkündür. Bu isə əhalinin mədəni inkişafına, maariflənməsinə və yeni ruhda tərbiyə edilməsinə çox böyük təkan verir.**

> **"... Bu gün bizim gözəl ölkəmizdə - sürətlə inkişaf edən ölkədə hər bir vətəndaş üçün bütün imkanlar var. Çünki ölkəmizin dinamik inkişafı, yeni iş yerlərinin, yeni istehsalat sahələrinin açılması əlbəttə ki, hər kəs üçün imkan yaradır. O insanlar ki, böyük biliklərə malikdirlər, onlar həyatda öz layiqli yerini tuta bilərlər".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

### *BİZİM ÇƏTİNLİKLƏRİMİZ ARXADA QALIB*

Bu sözləri mənimlə söhbətində Füzuli rayon mədəniyyət və turizm şöbəsinin müdiri Elman Məmmədov deyir. Elman Məmmədov rayonun çox tanınmış və hörmətli ziyalı bir nəslinin nümayəndəsidir. Onun özü bu ənənələri və xeyirxahlığı davam etdirən ziyalılardan biridir. Bununla yanaşı, Elman Məmmədovun rayon ictimaiyyəti arasında çox böyük nüfuzu və hörməti vardır. Ona görə ki, o, həmişə camaatın, elin, obanın arasında olub. Və insanlarla sıx ünsiyyət yaradıb.

Elman Məmmədov bildirir ki, Füzulinin mədəni həyatı bütün dövrlərdə inkişafda və yüksəlişdə olub. İşğaldan əvvəl də rayonda çox böyük mədəni proseslər, tədbirlər və görüşlər keçirilib. Təbii ki, həmin vaxtdan bəri uzun illər ötsə də və torpağımızın bir hissəsi işğal altında olsa da bu gün işğaldan azad olunan yaşayış məntəqələrində və Horadiz şəhərində mədəniyyət sahəsində böyük inkişaf və intibah hiss olunur. Bu da onunla bağlıdır ki, rayonda bu sahəyə həmişə xüsusi diqqət yetirilir.

### *YENİ BƏRPA OLUNAN MƏDƏNİYYƏT EVLƏRİ*

Elman müəllimlə Horadiz şəhərindəki muğam mərkəzində söhbətlərimizi davam etdiririk. O, bir balaca fikrə dalır və sonra da deyir ki, gəl söhbətimizin arxasını təmiz havada, Heydər parkında eləyək. Aydındır ki, bu da mənim ürəyimcə olur. Fevral ayı olmasına baxmayaraq, Horadizdə yaz havası hiss olunur. Günəşin əlvan şəfəqləri möhtəşəm Heydər Əliyev parkını bir qədər də gözəlləşdirir. Parkda addımladıqca ətrafda balaca uşaqların şən səslərini və gülüşlərini eşidirik.

Bu uşaqlar müxtəlif oyuncaqlarla oynayır və orabura qaçırlar. Elman müəllim onlara baxaraq söhbətini davam etdirir. Bu gün rayonumuzda 15 kənd mədəniyyət evi, 7 klub və eləcə də Horadiz şəhərində Dövlət Dram Teatrı fəaliyyət göstərir. Siz elə bilirsiniz əhalinin kütləvi tədbirlərə, tamaşalara və görüşlərə ehtiyacı yoxdur? Bir dəfə vaxtınız olanda gəlin Füzuli Dövlət Dram Teatrına, görün orda tamaşaya gələn nə qədər insanlar var. Bu gün Füzulidə əhali yaxşı işlədiyi kimi, yaxşı yaşadığı kimi, yaxşı da istirahət etmək istəyir. İnanın, yay vaxtları addımladığımız bu Heydər parkında gecə saatlarında adam əlindən tərpənmək olmur. Hava çox isti olanda nəinki Horadizin sakinləri, qonşu kəndin adamları da istidən canını qurtarmaq üçün bu parka gəlirlər. Sözümün canı ondan ibarətdir ki, bu gün rayonumuzun hər bir mədəniyyət ocağında, klubunda tədbirlər keçiriləndə ora çoxlu sayda insanlar gəlirlər.

### *KƏND KLUBLARINA DA MARAQ ARTIB*

Gəlin onunla razılaşaq ki, bu gün kənd yerlərində bir çoxları asudə vaxtlarını keçirmək üçün ya çayxanalara, ya da hardasa idman yarışlarına yönəldirlər. Amma Füzulidə vəziyyət tamamilə başqadır. Nəinki Horadiz şəhərində, hətta Araytılı, Babil, Kərimbəyli, Yağlıvənd, Böyük Bəhmənli, Əhmədbəyli kəndlərində mövcud mədəniyyət evlərində çox vaxt musiqi səsi eşitmək olar. Çünki burda ayrı-ayrı həvəskar musiqiçilər məşqlər edirlər, növbəti tədbirlərə hazırlaşırlar və özlərinin istedadlarını nümayiş etdirirlər. Elman Məmmədov bizimlə söhbətində bir fikri də vurğuladı ki, son vaxtlar məktəblərdə oxuyan müxtəlif istedadlı gəncləri rayon mərkəzində və kəndlərdə keçirdiyimiz müsabiqələrdə aşkarlaya bilirik. Elə uşaqlar var ki, Allah-Təala onlara qeyri-adi səs verib. O səslər elə-belə səs deyil. Muğam sənətini yaşadan bu uşaqları biz müsabiqələr yolu ilə axtarıb tapa bilirik. Bununla yanaşı, gözəl tar çalan, qarmon ifaçısı olan və rəqs etməyi bacaran neçə-neçə istedadlı gənclərimiz üzə çıxıb. Düzdür, onları tapıb üzə çıxarmaq çox böyük əziyyət tələb edir. Amma əsas məsələ odur ki, bu istedadlı uşaqların yaradıcılığı inkişaf etsin və onların istedadı bitməsin. Ona görə də bu gün istedadlı uşaqlarla işləməyi günün tələbləri səviyyəsində qurmağa çalışırıq və onların bir neçəsini biz böyük səhnəyə gətirmişik.



### *BAYRAM TƏDBİRLƏRİNDƏ YARADICI İNSANLAR DAHA YAXINDAN İŞTİRAK EDİRLƏR*

**Elman müəllim deyir ki, Füzulidə elə bir bayram tədbiri olmayıb ki, orda bizim mədəniyyət və incəsənət işçilərimiz iştirak etməsin. Xüsusən də Yeni il şənliklərində və Novruz bayramı ərəfəsində yaradıcı kollektivimiz maraqlı tamaşalar, musiqili proqramlar və ədəbi-bədii kompozisiya hazırlayaraq camaatla görüşə gəlir. Mütəmadi olaraq həm Horadiz şəhərində, həm də yaşayış məntəqələrində bu bədii proqramlar yüksək peşəkarlıqla yaradıcı gənclərimiz tərəfindən icra edilir. İndi biz qarşıdan gələn Novruz bayramı münasibətilə böyük tədbirlər planı hazırlamışıq. Allah qoysa, mart ayının əvvəllərində bu proqramın icrasına başlayacağıq. Elman Məmmədov sonda onu da bildirdi ki, bütün tədbirlərin keçirilməsində və uğurlu alınmasında Mədəniyyət və Turizm Nazirliyinin və eləcə də rayon icra hakimiyyətinin çox böyük dəstəyi var.**

(ardı var)

***Faiq QİSMƏTOĞLU***




AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ